# “Susma danış, ay ana!”

## H. İsaxanlı poeziyasından

Ana məhəbbəti, ana sevgisi dünyanın ən ali, ən zəngin hissidir. Ana övlad məhəbbəti sonsuzdur. İbrahim peyğəmbərin qadını Həcərin öz övladına olan tükənməz sevgisi ilə duyduğumuz bu hisslər əbədidir.

Həcərin özü ilə götürdüyü çörək, su tezliklə qurtardı, səhrada uşağı ilə bərabər ac-susuz qaldı. Uşaq bərk ağlayıb sızıldamağa başladı. Yazıq ana bu mənzərədən oda atılmış üzərlik kimi yandı, Pərişan halda gözlərindən yaş seli axdı. O, arzu etdi ki, kaş canının şirəsindən, ürəyinin qanından və gözünün yaşından ciyərparası üçün su və yemək hazırlaya biləydi. Tanrı bu müqəddəs sevgini qiymətləndirdi. Qəflətən uşaq ayağını toxundurduğu yerdən su fəvvarə vurur. Ananın sevinci yerə-göyə sığmır. Şair Hmlet İsaxanlı “susma danış, ay ana!” şerində belə fədakar analardan birinin surətini yaradıbdır.

Ananın yoxluğunu və ya səssiz fədakarlığını duyarkən qəlbində yaranan inilti hissi şair H. İsaxanlının “Susma danış, ay ana!” şerini oxuyarkən göz yaşlarına çevirir.

Sakit, səssiz, məzlum ana surəti və qarşı tərəfdə qayğıkeş,həssas, ananın şəkdiyi əziyyətlərdən sarsılan, ana sevgisinə qiymət verməyi bacaran övlad. Minnətdarlıq hissi çəkilən zəhmətə dəyər verir. Övladın mərhəməti, qayğısı ana üçün xoşbəxtlik, biganəliyi isə bəlkə də faciədir.

Ananın müqəddəs səsini eşitmək, duymaq, gülən simasını görmək şair üçün xoşbəxtlikdir.

Səssizliyin səsi-

O deyilmi?

Səsin ən yüksək mərtəbəsi?

Gözlərim qaralır;

Danış, ay ana, dillən,

Səbrim daralır.

Səsinin qanadları

Alsın məni qoynuna,

Sarılım boynuna,

Eşidim həzin səsini,

Duyum doğma nəfəsini, ay ana!

Şair ananın səssizliyinin səsini səsin ən yüksək mərtəbəsi hesab edir. Ən yüksək səs daxilində olan kədərin səsidir, öz övladlarının qayğısını çəkən, onların səadəti üçün çıxış yolu axtaran ananın səssizliyidir. Həssas şair qəlbi ananın səssizliyinə dözə bilmir. Ananın kədəri, səssizliyi şairin dincliyini pozur, qəlbində fəryad aparır!

Danışanda gülür həyat,

Səssizliyin qəlbimdə qoparır

Fırtına, tufan, fəryad.

Ananın çəkdiyi əziyyətləri uşaqlıqdan duyan insnların qəlbində bütün insanlara qarşı mərhəmətli olmaq hissi daha güclü olur. Şair gənc yaşlarından ananın çəkdiyi əziyyəti və “səssizliyi” duyubdur.

Səssizliyinlə keçən gəncliyimi

Həmişəlik qoydum arxada,

Ay ana.

İndi sənsən mənə

Təsəlli də, arxa da.

“Taleyin qəm mürgüsü”, yaşadığı keşməkeşli həyat ananın qəlbini sındırıbdır. Keçmişə baxanda gördüyü intizarlı, həyəcanlı günlər ananın baxışlarında məhzunluq yaradıbdır. Daxilində qəm yükü olanda üzü gülsə də, qəlbi ağlayır. Zaman-zaman çəkdiyi üzüntü, köməyə möhtaclıq, acı günlərdə qəlbində olan daxili tənhalıq və kövrəklik hissi ananın “gülüşünü qüssə ilə qonşu” edibdir. Heç kəs başqasının həyatını yaşaya bilməz. Ananın həyat qismətində ürəkdən gülmək

yazılmayıbmış. Ananın qədərinə düşən sevinc payı mərhəmətli və qayğıkeş övladın sevgisidir. Həssas qəlbli şair ananın səsini eşitmək istəyir.

Sən susanda

Canımı oda yaxırsan, ay ana,

Danışanda

Ruhuna sığal çəkən

Mələkləri andırırsan, ay ana.

Şair onun qarşısında baş əyib, səcdəgahı bilir. Qoca naya şairin münasibəti illər boyu sıxıntı çəkib qəm yükü daşıyan ananı xöşbəxtlik zirvəsinə qaldırır.

Yamanca qocaldın, ay ana,

Bükülüb kiçildin;

Kiçikdikcə sən böyüdün gözümdə.

Qarşında baş əydim,

Səcdəgahımsan ümdə.

Qocalıbsan, ay ana,

Yaman qocalıbsan;

Qocalığın da səssizliyin kimi

Göynədir içimi.

Gücsüzlükdən kəsər qalmır sözümdə ,

Ay ana....

Gücsüzlükdən kiçilirəm

Öz gözümdə özümdə,

Ay ana...

Şair özü artıq yaşa dolmasına baxmayaraq zəif, gücsüz ana əllərinə ehtiyac duyur, bəlkə də zamanın keşməkeşlərinə dözmək dərsin alıb anasından

Baxma uşaq olmayan yaşıma,

Əlini çək başıma, ay ana,

Gücsüz əllərinə ehtiyacım var...

H. İsaxanlının “Susma, danış, ay ana!” şeri müqəddəs ana varlığına verilən ən dəyərli qiymətdir. Azərbaycan poeziyasında Cəfər Cabbarlının “Ana” şeri ilə yanaşı durmağa layiq əsərdir şairin “Susma, danış, ay ana!” şeiri. Bu kiçik yazını bitirdikdən sonra xalq şairimiz Nəriman Həsənzadənin də eyni fikirdə olduğunu bildim.

Zöhrə Əliyeva